# MUXTARİYYƏT DÖVRÜNDƏ NAXÇIVANDA ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİNİN İNKİŞAFI



**Taleh Xəlilov,**
*Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: x.taleh@gmail.com*

**UOT**: 37.01

**Xülasə.** *Məqalədə muxtariyyət dövründə Naxçıvanda təhsilin vəziyyəti araşdırılmışdır. Sonradan öyrənildi ki, təhsil dövründə təhsilin bütün istiqamətləri sürətlə inkişaf etmişdir. Qəbul edilmiş fərman və sərəncamlar, həmçinin onların icrası Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişinə, tərəqqisinə, məzmununun yenilənməsinə, maddi-texniki cəhətdən gücləndirilməsinə, dünya standartlarına uyğunlaşdırılmasına və müstəqilliyinə imkan yaratmışdır. Naxçıvan Muxtar Respublikasındakı məktəb şəbəkəsi müstəqillik dövründə əhəmiyyətli dərəcədə artmağa başlamışdır.*

*Muxtariyyət dövründə təhsil sahəsində aparılan mütərəqqi dəyişikliklər Naxçıvanda maarifçilik ideyalarının inkişafına, yerli ziyalıların üzə çıxmasına təkan vermişdir. Həmçinin o dövrdə təhsil və mədəniyyət sahəsində gələcək nailiyyətlər üçün əsaslı zəmin formalaşmışdır.*

***Açar sözlər:*** *Naxçıvan, təhsil, universitet, kollec, məktəb, müəllim.*
***Key words:*** *Nakhchivan, education, university, college, school, teacher.*
***Ключевые слова:*** *Нахичеване, образование, университет, колледж, школа, учитель.*

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf etmişdir. Eramızın XIII-XIV əsrlərində təhsil və elm sahəsindəki canlanma və inkişaf bir sıra yeni təhsil ocaqlarının yaranmasına səbəb olmuşdur. Uzun və şərəfli tarixi inkişaf yolu keçən Azərbaycan mədəniyyəti XIX əsrin əvvəllərində mürəkkəb tarixi reallıqlarla üzləşmişdir. Çar hökuməti Cənubi Qafqazın xristian bölgələrindən fərqli olaraq müsəlmanlar içərisində təhsilin inkişafına nəinki yardım etmiş, hətta onun qarşısını almağa çalışmışdır. Belə ki, Azərbaycanda tarixən ənənəvi təhsil müəssisələri olan məktəb və mədrəsələrin fəaliyyətinin öyrənilməsi, onların əsasında təhsilin inkişaf etdirilməsi əvəzinə müstəmləkəçilik məqsədlərinə xidmət edən təhsil sistemi yaradılmasına cəhd edilirdi. Məhz bunun nəticəsi idi ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycanda, həmçinin Naxçıvan bölgəsində mürəkkəb struktura malik təhsil şəbəkəsi meydana gəlmişdir. XX əsrin 20-30-cu illərində Naxçıvanda təhsil sahəsində əldə edilən nailiyyətlərdən biri də əhali arasında savadsızlığın ləğv edilməsi olmuşdur. Qeyd edək ki, 1920-1930-cu illərdə Naxçıvan Xalq Maarif Komissarlığı nəzdində Naxçıvanda "Savadsızlığı ləğvetmə" qərargahları yaradılmışdır [4, 21].

Böyük Vətən müharibəsindən sonrakı illərdə, xüsusən də 1950-1960-cı illərdə iqtisadiyyatın, təsərrüfatın və mədəni sahələrin inkişafında, sosial inkişaf planlarının yerinə yetirilməsində əldə olunmuş nəticələr Naxçıvan MSSR-də təhsilin

inkişafına öz təsirini göstərmişdir [2, 75].

Muxtariyyət dövründə muxtar respublikanın kənd təsərrüfat müəssisələrini ixtisaslı kadrlarla təmin edən əsas təhsil ocağı Naxçıvan Sovxoz Texnikumu olmuşdur. Qeyd edək ki, 1970-ci illərdə burada 2000 nəfərə yaxın mütəxəssis hazırlanmışdır. Bu da əvvəlki onillikdən təqribən iki dəfə çox olmuşdur. Belə ki, 1970-1971-ci tədris ilində muxtar respublikanın orta ixtisas məktəblərində 1070, 1980-1981-ci tədris ilində 1762 [1,97], 1987-1988-ci tədris ilində isə 2212 nəfər tələbə təhsil almışdır [3,18]. Bu rəqəmlərdən aydın olur ki, həmin məktəblərə qəbul olanların sayı 319 nəfərdən 690 nəfərə çatdırılmışdır.

**Naxçıvan Dövlət Texniki Kolleci** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 avqust tarixli Qərarına əsasən, Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazasında yaradılmışdır. Qeyd edək ki, hazırda kollecdə *"mühasibat uçotu", "bank işi", "nəqliyyat vasitələrinin texniki istismarı (nəqliyyat növləri üzrə), "yol hərəkətinin təşkili"* və *"baytarlıq"* ixtisasları üzrə 455 nəfərə yaxın tələbənin təhsili ilə 36 nəfərdən artıq müəllim məşğul olur [9]. Onu da qeyd edək ki, 2016-cı il oktyabr ayının 10-da kollecin yeni tədris binası istifadəyə verilmişdir.

Muxtariyyət dövründə Naxçıvanda musiqi təhsilinin inkişafında **Naxçıvan Musiqi Kollecinin** də böyük rolu vardır. Qeyd edək ki, Naxçıvan Musiqi Kolleci 1974-cü ildə yaradılmışdır. İlk dəfə olaraq 4 ixtisas üzrə fəaliyyətə başlayan kollec, 1992-ci ilədək Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu, 2005-ci il 9 sentyabr tarixindən isə Naxçıvan Musiqi Kolleci adlandırılmışdır [7]. Kollecdə *"musiqi müəllimliyi", "kitabxana-informasiya təminatı", "instrumental ifaçılıq (qarmon üzrə)", "xanəndəlik", "vokal sənəti", "xor dirijorluğu", "musiqi nəzəriyyəsi", "xoreoqrafiya sənəti", "xalq çalğı alətləri ifaçılığı (alətlər üzrə)"* və *"aşıq sənəti"* ixtisasları üzrə kadrlar hazırlanır. Fəaliyyət göstərdiyi müddətdə kollecdə 1000-dən artıq ixtisaslı musiqi sahəsi üzrə kadrlar hazırlanmışdır.

Hazırda kollecdə 400-ə yaxın tələbə təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 110-a yaxın müəllim məşğul olur. Burada təhsil alan musiqi mütəxəssisləri muxtar respublikada fəaliyyət göstərən musiqi məktəblərində musiqi müəllimlərinə olan tələbatı tam ödəyir.

**Naxçıvan Tibb Kollecinin** əsası Azərbaycan SSR Xalq Komissarları Sovetinin "Orta tibb heyətinin hazırlanması haqqında"kı Qərarı əsasında Naxçıvan Xalq Səhiyyə Komissarlığının səyi ilə 1931-ci il sentyabr ayının 5-də qoyulmuşdur [10]. Naxçıvan Tibb Kollecinin adı 1935-ci ildə Naxçıvan Tibb Bacısı Məktəbi, 1936-cı ildə Naxçıvan Tibb Məktəbi, 1945-ci ildə Naxçıvan Feldşer-Mamalıq Məktəbi, 1947-ci ildə isə Naxçıvan Feldşer Məktəbi adları alaraq bir neçə dəfə dəyişdirilmişdir. Daha sonra isə bu tədris müəssisəsinin adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyun tarixli Qərarına əsasən, dəyişdirilərək Naxçıvan Tibb Kolleci adlandırılmışdır. 2018-ci il sentyabr ayının 13-də Naxçıvan Tibb Kollecinin yeni binasının açılışı olmuşdur. *"Müalicə işi", "mamalıq işi", "ortopedik stomatologiya", "laboratoriya diaqnostikası", "tibb bacısı işi", "əczaçılıq işi", "idman və müalicə masajı"* və *"hərbi feldşer"* ixtisasları üzrə tibb kadrları hazırlanan kollecdə 350 tələbənin təlim-tərbiyəsi ilə 65 nəfərdən artıq müəllim məşğul olur. Muxtar respublikada gənclərin hərtərəfli təhsilə yiyələnmələrinə və əsl mütəxəssis kimi hazırlanması sahəsində kollecin imkanlarından geniş istifadə olunur.

Bu gün ölkəmizdə ali məktəblər içərisində özünəməxsus yer tutmuş Naxçıvan Muxtar Respublikasının əsas elm, təhsil, ictimai fikiri və mədəniyyət mərkəzi olan, dəyərli elm adamları və müəllim kadrlarının hazırlanmasında **Naxçıvan Dövlət Universitetinin** də böyük rolu və xidmətləri vardır. Bu elm məbədinin keçdiyi yola nəzər salarkən belə bir qənaətə gəlmək olar ki, Naxçıvanın bugününü, onun elmini, mədəniyyətini, alimlərini, habelə iqtisadiyyatını, mənəvi-psixoloji durumunu, bir sözlə, bütövlükdə yaşadığımız ictimai mühiti bu təhsil ocağından ayrılıqda təsəvvür etmək olmaz. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan bu ali təhsil müəssisəsinə 1967-ci ildə 3 ixtisas üzrə 102 tələbə qəbul olmuşdur. Tələbələrin təlim-tərbiyəsi ilə birinci il ştatda olan cəmi 3 müəllim məşğul olmuşdur.

Dünyanın çoxəsrlik tarixə malik universitetləri ilə müqayisədə Naxçıvan Dövlət Universiteti

gənc olsa da, çoxmənalı həyat yolu keçmişdir. Filial kimi fəaliyyətə başlayan bu ali məktəb az sonra ümummilli lider Heydər Əliyevin 1972-ci il 12 iyun tarixli Fərmanı ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutu kimi fəaliyyət göstərmişdir. İnstitut sonralar 1990-cı il 29 dekabr tarixində Naxçıvan Dövlət Universitetinin təşkili üçün böyük baza funksiyasını yerinə yetirmişdir.

Naxçıvan Dövlət Universitetinin maddi-texniki bazası böyük sürətlə inkişaf etmiş, yeni korpuslar tikilmiş, köhnəlmiş, istifadəyə yararsız korpuslar isə yenidən təmir olunaraq tələbələrin istifadəsinə verilmişdir. Universitet təcrübəli professor müəllim heyəti ilə təmin edilmiş və burada Avropa standartlarına uyğun təhsil sistemi qurulmuşdur. Müstəqillik dövründə universitetin beynəlxalq miqyasda şöhrəti artmış, bir çox Avropa ölkələri ilə sıx əlaqələr qurmuş, tələbə-magistr və müəllim təcrübə mübadilələri aparılmışdır. Universitetdə 12 fakültədə 58 ixtisas üzrə bakalavr, 43 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı həyata keçirilir. Ümumilikdə universitetdə 6 min nəfərə yaxın tələbə təhsil alır. Tələbələr sırasında 12 ölkədən 300 nəfərdən çox xarici tələbə vardır [5]. Universitetdə hazırlanan kadrlar muxtar respublikanın bütün təhsil müəssisələrində digər ali məktəblərə nisbətən üstünlük təşkil edir.

Naxçıvanda fəaliyyət göstərmiş Naxçıvan Politexnik Texnikumunun bazasında 2000-ci il iyul ayının 13-də Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılmışdır. Qeyd edək ki, filial 2003-cü il avqust ayının 26-da **Naxçıvan Müəllimlər İnstitutu** kimi müstəqil fəaliyyətə başlamışdır [6]. İlk dəfə olaraq 21 tələbə və 2 ixtisasla fəaliyyətə başlayan institutda hazırda *"ibtidai sinif müəllimliyi"*, *"məktəbəqədər təlim və tərbiyə"*, *"riyaziyyat və informatika müəllimliyi"*, *"təsviri incəsənət müəllimliyi"*, *"kitabxanaçılıq və informasiya"*, *"biologiya müəllimliyi"*, *"təhsildə sosial-psixoloji xidmət"* və *"rus dili müəllimliyi"* ixtisasları üzrə 1500 nəfərdən çox bakalavr, *"pedaqogikanın nəzəriyyəsi və tarixi"*, *"təhsildə sosial-psixoloji xidmət"* və *"ibtidai sinifdə tədrisin metodikası və metodologiyası"* ixtisası üzrə isə 30 nəfərdən artıq magistr təhsil alır. Onların təlim-tərbiyəsi ilə 8 elmlər doktoru, professor, 37 fəlsəfə doktoru, dosent məşğul olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il may ayının 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak etmiş, yeni binanın istifadəyə verilməsi ilə əlaqədar institutun müəllim və tələbələrini təbrik etmişdir. İnstitut muxtar respublikada pedaqoji kadrların hazırlanması kimi mühüm bir məqsədə xidmət edir.

Paytaxtımızdan kənarda yerləşən yeganə özəl ali təhsil ocağı 1999-cu ildə Naxçıvanda yaradılmışdır. Zəngin maddi-texniki bazaya malik olan Naxçıvan Universiteti 7 binadan və yardımçı qurğulardan ibarətdir. Arxitektura və pedaqoji baxımdan mükəmməl olan universitetdə muxtar respublikanın təcrübəli professor-müəllim heyəti elmi-pedaqoji fəaliyyətini davam etdirir. Qeyd edək ki, 4 fakültə, 10 kafedra və 6 şöbə fəaliyyət göstərdiyi universitetdə 14 bakalavr, 4 magistr ixtisası üzrə 1000 nəfərə yaxın tələbə təhsil alır. Tələbələrin təlim-tərbiyəsi ilə 81 nəfərə yaxın professor-müəllim məşğul olur [8].

Naxçıvan Universiteti Naxçıvanda fəaliyyət göstərən təhsil müəssisələrinin müəllim kadrları ilə təmin olunmasında üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

**Nəticə.** Sonda onu da nəzərinizə çatdıraq ki, muxtariyyət dövründə Naxçıvan bölgəsində ali və orta ixtisas təhsili sürətlə inkişaf etmişdir. Qəbul olunmuş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına yaxınlaşmasını sürətləndirmişdir. Ali və orta ixtisas təhsili sahəsində həyata keçirilmiş mütərəqqi dəyişikliklər Naxçıvanda maarifçilik ideyalarının inkişafına və yerli ziyalı təbəqəsinin formalaşmasına təkan verir. Muxtar respublikada ali və orta ixtisas təhsili sahəsində əldə edilmiş nailiyyətlər gələcək uğurların əsasını qoyur.

## ƏDƏBİYYAT

1. Cəfərov H.R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı, Elm və təhsil, 2011, 544 səh.

2. Məmmədov V.S. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. Ba-

kı, Çənlibel, 2001, 220 səh.

3. Mollayev İ.A. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı, "Bilik" cəmiyyəti, 1983, 31 səh.

4. Mollayev İ.A. Naxçıvanda xalq maarifinin inkişafı tarixindən. Azərbaycan tarixində Naxçıvan. ADPU-nun mətbəəsi, Bakı, 1996, səh. 103-109.

5. http://ndu.edu.az/az/content/19/

6. http://www.serqqapisi.az/index.php/humanitar/elm-v-t-hsil/7802-nakhdzh-van-muaellimlaer-institutu-oetaen-15-ildae-boeyuk-inkishaf-yolu-kedzhmishdir

7. https://azertag.az/xeber/Naxchivan_Musiqi_Kollecinin yaradilmasinin 40 illik yubileyi qeyd olunub 848974

8. https://nu.edu.az/az/universitet/haqqında

9. https://az.wikipedia.org/wiki/Naxçıvan Dövlət Texniki Kolleci#İxtisaslar

10. http://www.ntk.nakhchivan.az

**T.Khalilov**

## Development of higher and special secondary education in Nakhchivan during the autonomy period

### Abstract

The article examines the state of education in Nakhchivan during autonomy. It was then learned that all aspects of education were rapidly developing during the study period. The adopted decrees, decrees and decrees and their implementation conditioned the comprehensive rise, progress, content renewal, material-technical strengthening, approximation to world standards, independent of the education sector in Azerbaijan, and the network of schools in Nakhchivan Autonomous Republic increased significantly during independence.

Progressive changes in the field of education during autonomy gave impetus to the development of the ideas of enlightenment in Nakhchivan and the formation of the local intelligentsia. At that time, education and culture gained a lot of groundwork for future success.

**Т.Халилов**

## Развитие высшего и среднего специального образования в Нахичеване в период автономии

### Аннотация

В статье рассматривается состояние образования в Нахичеване в период автономии. Затем стало известно, что все аспекты образования быстро развивались в течение периода обучения. Принятые указы, указы и указы и их реализация обусловили всесторонний рост, прогресс, обновление контента, материально-техническое укрепление, приближение к мировым стандартам, независимо от сектора образования в Азербайджане, и сеть школ в Нахичеванской Автономной Республике значительно увеличилась за время независимости.

Прогрессивные изменения в области образования в период автономии дали толчок развитию идей просвещения в Нахичеване и формированию местной интеллигенции. В то время образование и культура получили много основ для будущего успеха.